# İslamı yeni qəbul etmiş müsəlman üçün müxtəsər faydalı kitab



Hazırlayan
Muhəmməd əş-Şəhri

Ağıllı telefonlar üçün xüsusi nüsxə

بسم الله الرحمن الرحيم

Mərhəmətli, Rəhmli
Allahın adı ilə!

**Mövzuya keçmək üçün düyməyə bas**




## Rəbbim Allahdır




## Peyğəmbərim Muhəmməd

səllallahu aleyhi və səlləm




## Qurani-Kərim Rəbbimin kəlamıdır

**Mövzuya keçmək üçün düyməyə bas**




**İslamın əsaslarını öyrənirəm**




**İmanın əsaslarını öyrənirəm**




**Dəstəmaz almağı öyrənirəm**

**Mövzuya keçmək üçün düyməyə bas**




## Məstlər və corablar üzərinə məsh etmək




## Qüsl




## Təyəmmüm

**Mövzuya keçmək üçün düyməyə bas**




**Namaz qılmağı öyrənirəm**




**Müsəlman qadının hicabı**




**Möminin vəsflərindən bəzisi**

Mövzuya keçmək üçün düyməyə bas




İslam dinimdəki səadətim

Həqiqətən, həmd Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır və Ondan bağışlanma diləyirik. Nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona sığınırıq. Allah kimə hidayət versə, o, haqq yolunda olar, kimi də sapdıra, onu haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və rəsuludur.

**Sonrasına gəlincə:**

Uca Allah Adəm övladını yaratdığı məxluqatın bir çoxundan hörmətli və fəzilətli etmişdir. Uca Allah buyurur: {Biz Adəm oğullarını hörmətli etdik} ["əl-İsra" surəsi, 70].

İslam ümmətinin ehtiramını isə daha da artıraraq peyğəmbərlərinin ən fəzilətlisi sayılan Muhəmmədi səllallahu aleyhi və səlləm onlara elçi göndərmiş, kitablarının ən xeyirlisi olan Qurani-Kərimi onlara nazil etmiş və qanuniləşdirdiyi dinlərin ən əzəmətlisi sayılan İslam dinini onlar üçün bəyənib seçmişdir. Uca Allah buyurur: {Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz; onlara yaxşı işlər görməyi əmr edib, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir} ["ali-İmran" surəsi, 110].

Uca Allahın insana bəxş etdiyi ən böyük nemətlərdən biri onu İslam dininə hidayət etməsi, ona bu dində sabit qalmağı nəsib etməsi, habelə, İslam əhkamlarını və qanunlarını yerinə yetirməyə müvəffəq etməsidir. Həcmi balaca, məzmunu isə geniş olan bu kitab, İslam dininə yenicə qədəm qoymuş müsəlmana dində öyrənilməsi zəruri olan məlumatları müxtəsər şəkildə öyrədir, ona bu əzəmətli dininin ayinlərini izah edir ki, bütün bunları başa düşüb, öyrəndiklərinə əməl etdikdən sonra, öz Rəbbini, Onun peyğəmbəri Muhəmmədi səllallahu aleyhi və səlləm və İslam dinini tanımaq üçün elm öyrənməyə davam etsin və elmini daha da artırsın. Beləliklə də, dəlil-sübuta əsaslanaraq, elmli şəkildə Allaha ibadət etsin, habelə, Allaha ibadət edib, Ona yaxınlaşmaqla və Onun peyğəmbəri Muhəmmədin səllallahu aleyhi və səlləm sünnəsinə tabe olmaqla imanını artırsın.

Uca Allahdan istəyim budur ki, bu kitabdakı hər kəlməyə bərəkət versin, bu kitab vasitəsilə İslama və müsəlmanlara fayda versin, bu kitabı sırf Onun rizasını qazanmaq üçün olan əməllərdən etsin və onunla müsəlmanların hamısına – həm həyatda olanlara, həm də dünyadan köçənlərə savab qazandırsın.

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və cəmi səhabələrinə Allahın salavatı və salami olsun!

**Muhəmməd ibn Şeybə əş-Şəhri**

Hicri: 2/11/1441

ربي الله

# Rəbbim Allahdır

- Uca Allah buyurur: {Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə Ondan qorxasınız} [əl-Bəqərə” surəsi, 21].
- O, həmçinin buyurur: {O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı bilən Allahdır} [“əl-Həşr” surəsi, 22].
- O, həmçinin buyurur: {Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir} [əş-Şura” surəsi, 11].
- Allah mənim Rəbbim və hər bir şeyin Rəbbidir. O, Hökmdar, Xaliq, Ruzi verən və hər şeyi İdarə edəndir.
- İbadətə edilməyə layiq olan məbud yalnız Odur, Ondan başqa rəbb və Ondan savayı ilah yoxdur.

- Allahın Özü haqqında xəbər verdiyi, həmçinin peyğəmbəri Muhəmmədin səllallahu aleyhi və səlləm Onun haqqında xəbər verdiyi ən gözəl adlar və ən uca sifətlər yalnız Ona məxsusdur. Bunlar ən kamil və ən gözəl adlar və sifətlərdir. Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.

**Allahın ən gözəl adlarından bəzisi bunlardır:**

**ər-Rəzzaq, ər-Rəhman, əl-Qədir, əl-Məlik, əs-Səmi, əs-Səlam, əl-Bəsir, əl-Vəkil, əl-Xaliq, əl-Lətif, əl-Kafi, əl-Ğəfur.**



## ər-Rəzzaq:

qullarının qəlblərini və bədənlərini qüvvətləndirən ruzini verməyi Öz öhdəsinə götürən.

## ər-Rəhman:

hər şeyi əhatə edən əzəmətli və geniş mərhəmət sahibi.

## əl-Qədir:

heç bir acizlik və yorğunluğa məruz qalmayan kamil qüdrət sahibi.

## əl-Məlik:

əzəmətli sifətlər, hökm vermək və idarə etməklə vəsf olunan. Hər şeyi idarə edən Hökmdar.

## əs-Səmi:

gizlində və aşkarda olan hər şeyi eşidən.

## əs-Səlam:

hər bir nöqsandan, xəstəlikdən və eyibdən uzaq olan.

## əl-Bəsir:

hər şeyi – ən xırda və ən kiçik olanları görən. Hər şeyi görən, hər şeyin batinindən xəbəri olan.

## əl-Vəkil:

yaratdıqlarına ruzi verməyi Öz öhdəsinə götürən və onlara məsləhət gördüyünü nəsib edən. Övliyalarını qoruyan, onların işlərini asanlaşdıran və onların işlərini avand edən.

## əl-Xaliq:

əşyaları icad edən və onları bənzərsiz olaraq ixtira edən.

## əl-Lətif:

qullarının qeydinə qalan, onlara mərhəmət göstərən və onlara istədiklərini verən.

### əl-Kafi:

qullarının ehtiyacı olan hər bir şeyi onlara verməyə kifayət edən; o İlah ki, ancaq Onun köməyinə ehtiyac duyulur və ancaq Ondan mədəd umulur.

### əl-Ğəfur:

o İlah ki, Öz qullarını onların günahlarının şərindən qoruyur və bu günahlara görə tövbə etdikləri təqdirdə onları cəzalandırmır.



Müsəlman olan kəs Allahın yaratdığı məxluqatın möhtəşəmliyi və asanlaşdırdığı hər bir şey barədə fikirləşməlidir. Ən xırda məxluqatın belə qeydinə qalıb, onların ruzisini verməsi və onların işlərini idarə etməsi buna aiddir. Onları yaradan, tam zəif məxluq olduqları halda onların qeydinə qalaraq və onların əhvalını yaxşılaşdıraraq onlara lütf edən Allah pak və müqəddəsdir.

نبي محمد صلى الله عليه وسلم

# Peyğəmbərim Muhəmməd

## səllallahu aleyhi və səlləm





Uca Allah buyurur: {Sizə özünüzdən elə bir rəsul gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O, sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir} [ət-Tovbə”, surəsi, 128].

- O, həmçinin buyurur: {Səni də aləmlərə ancaq rəhmət olaraq göndərdik} [əlƏnbiya", surəsi, 107].

## Muhəmməd sәllallahu aleyhi və səlləm doğru yol göstərən rəhmət peyğəmbəridir

O, peyğəmbərlərin və rəsulların sonuncusu Muhəmməd ibn Abdullahdır səllallahu aleyhi və səlləm. Uca Allah ona İslam dinini təbliğ etməyi həvalə edib, onu insanların hamısına elçi göndərmişdir ki, xeyirli əməlləri – o cümlədən də bu əməllərin ən əzəmətlisi olan tövhidi onlara öyrətsin və şər əməlləri – o cümlədən də bu əməllərin ən çirkini olan şirki onlara qadağan etsin.

Onun əmrlərinə itaət etmək və təbliğ etdiyi xəbərləri təsdiqləmək, habelə, qadağan etdiyi və çəkindirdiyi əməllərdən uzaq durmaq, üstəlik, onun öyrətdiyi qaydada Allaha ibadət etmək vacibdir.

Onun da, ondan əvvəlki peyğəmbərlərin də təbliğatı, Tək Allaha ibadət etməyə və heç nəyi Ona şərik qoşmamağa dəvət etmək olmuşdur.

## Peyğəmbərin səllallahu aleyhi və səlləm xislətlərindən bəzisi bunlardır:

- Doğru danışmaq.
- mərhəmət göstərmək.
- mülayim olmaq.
- səbir etmək, şücaətkarlıq.
- səxavətlilik.
- gözəl əxlaqlılıq.
- ədalətlilik.
- təvazökarlıq.
- əfv etmək.

القرآن الكريم كلام ربي

# Qurani-Kərim Rəbbimin kəlamıdır





Uca Allah buyurur:

{Ey insanlar! Rəbbinizdən sizə bir dəlil gəldi və Biz sizə aydın bir nur (Quran) nazil etdik} ["ən-Nisa" surəsi, 174].

Qurani-Kərim uca Allahın, insanları zülmətlərdən nura çıxartmaq və onları düz yola yönəltmək üçün, Öz peyğəmbəri Muhəmmədə səllallahu aleyhi və səlləm nazil etdiyi kəlamıdır.

Kim bu kitabı oxuyarsa, böyük savab qazanar, içində buyurulanlara əməl edərsə, düz yola yönələr.

أتعرف على أركان الإسلام

# İslamın əsaslarını öyrənirəm



Bu xüsusda, Peyğəmbər səllallahu aleyhi və səlləm belə demişdir:

**“İslam beş əsas üzərində qurulmuşdur: Allahdan başqa ilahın olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, ramazan orucunu tutmaq və həcc etmək”** (“Səhih əl-Buxari”, 8; “Səhih Muslim”, 16).

İslamın dayaqları, hər bir müsəlmana vacib olan ibadətlərdir. Adam bu ibadətlərin vacib olduğuna etiqad etməli və onları yerinə yetirməlidir. Çünki İslam dini bu beş dayaq üzərində qurulmuşdur. Elə buna görə də onlar “İslamın dayaqları” adlandırılmışdır.

**O dayaqlar bunlardır:**

# İslamın əsaslarını

1

Allahdan başqa ilahın olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şahidlik etmək.

2

Namaz qılmaq

# İslamın əsaslarını

3

Zəkat vermək

4

Ramazan ayını oruc tutmaq

5

Həcc etmək



# Birinci əsas

## Allahdan başqa ilahın olmadığına və Muhəmmədin Allahın rəsulu olduğuna şahidlik etmək

- Uca Allah buyurur: {Bil ki, Allahdan başqa ilah yoxdur} [“Muhəmməd” surəsi, 19].
- O, həmçinin buyurur: {Sizə özünüzdən elə bir rəsul gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O, sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir} [“ət-Tovbə” surəsi, 128].

“Muhəmməd Allahın rəsuludur” şəhadətinin mənası: onun əmrlərinə itaət etmək və təbliğ etdiyi xəbərləri təsdiqləmək, habelə, qadağan etdiyi və çəkindirdiyi əməllərdən uzaq durmaq, üstəlik, onun öyrətdiyi qaydada Allaha ibadət etmək vacibdir.



# İkinci əsas

## Namaz qılmaq

- Uca Allah buyurur: {Namaz qılın!} [“əl-Bəqərə” surəsi, 110].
- Namaz uca Allahın qanuniləşdirdiyi və Onun rəsulu Muhəmmədin səllallahu aleyhi və səlləm bizə öyrətdiyi şəkildə yerinə yetirilməlidir.



# Üçüncü əsas

## Zəkat vermək

- Uca Allah buyurur: {Zəkat verin!} ["əl-Bəqərə" surəsi, 110].
- Uca Allah müsəlmanın imanının doğru olub-olmadığını yoxlamaq, Rəbbinin ona bəxş etdiyi var-dövlətə görə Ona şükr etməsi, üstəlik, kasıblara və ehtiyacı olanlara yardım etməsi üçün zəkat verməyi vacib buyurmuşdur. Zəkat – ona haqqı çatan kimsələrə verilməlidir.

- Zəkat – müəyyən miqdara çatmış maldan çıxarılan vacib haqdır. Zəkat Allahın Qurani-Kərimdə zikr etdiyi səkkiz sinif insana – o cümlədən fəqirlərə və kasıblara verilir.

- Zəkat vermək qəlbdə mərhəmət və ülfət yaradır, müsəlmanın əxlaqını düzəldir və malını təmizləyir, fəqirlərin və kasıbların qəlbini razı salır, müsəlman cəmiyyətinin fərdləri arasındakı məhəbbət və qardaşlıq bağlarını möhkəmləndirir. Odur ki, əməlisaleh müsəlman öz könül xoşluğu ilə zəkatını çıxardıb, onu sevinc hissilə ehtiyacı olanlara verir, beləliklə də, digər insanları sevindirir.

- Mal-dövlətin zəkatının miqdarı onun 2.5 faizidir. Bu, saxlanılan qızıl və gümüşdən, qiymətli əskinazlardan, qazanc əldə etmək məqsədilə alış-veriş üçün saxlanılan mallardan verilir. Zəkatın çıxartmaq üçün sadalananlar müəyyən miqdara çatmalı və zəkat üçün zəruri olan məbləğə çatmasından bir il keçməlidir.

- Həmçinin mal-qarası (dəvə, iri buynuzlu heyvan və xırda buynuzlu heyvan və dəvə) olanlar, bu heyvanlar müəyyən saya çatdıqda, onların zəkatını verməlidirlər. Bu heyvanlardan zəkat çıxartmaq üçün onlar sahiblərinin vəsaiti ilə yox, çöldə otarılmalı və zəkat üçün zəruri saya çatmasından bir il keçməsi şərtdir.
- Həmçinin, torpaqdan çıxan dənli bitkilərin, saxlanılması mümkün olan meyvələrin, mədənlərdən çıxarılan qiymətli əşyaların və tapılan xəzinələrin zəkatı – bunlar müəyyən miqdara çatdıqda verilməldir.



# Dördüncü əsas

## Ramazan ayını oruc tutmaq

- Uca Allah buyurur: {Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, bəlkə Allahdan qorxasınız} [“əl-Bəqərə” surəsi, 183].

- Ramazan: hicri təqvimi ilə ilin doqquzuncu ayıdır. Bu, müsəlmanlar üçün əzəmətli bir aydır. Bu ayın ilin digər ayları arasında xüsusi yeri var. Bu ayı tam şəkildə oruc tutmaq İslam dininin beş əsasından biridir.
- Ramazan ayını oruc tutmaq: bu mübarək ayın hər günündə, uca Allaha ibadət etmək məqsədilə dan yeri sökülən vaxtdan günəş batanadək yemək-içməkdən, cinsi əlaqəyə girməkdən və orucu pozan digər amillərdən uzaq durmaqdır.



# Beşinci əsas

## Həcc etmək

- Uca Allah buyurur:{Yoluna gücü çatan hər kəsin müqəddəs Evi ziyarət etməsi Allahın insanlar üzərindəki haqqıdır} [“Ali-İmran” surəsi, 97].
- Həcc ziyarəti yalnız onu yerinə yetirməyə imkanı olan kimsələrə, ömürdə bir dəfə vacibdir. Bu, müəyyən olunmuş zamanda müəyyən edilmiş ibadətləri yerinə yetirmək məqsədilə

Allahın toxunulmaz Evini (Kəbəni) və Məkkeyi-Mükərrəmədəki müqəddəs yerləri (Mina, Ərəfa, Müzdəlifə) ziyarət etməkdir. Peyğəmbər səllallahu aleyhi və səlləm həcc ziyarətini yerinə yetirmiş, ondan əvvəl də bir çox peyğəmbərlər aleyhimussalətu vəssəlam həcc ziyarətini etmişlər. Uca Allah İbrahimə aleyhissəlam insanları həcc ziyarətinə çağırmağı əmr etmişdir. Bu xüsusda, uca Allah Qurani Kərimdə belə buyurur: {İnsanlar arasında həcci elan et ki, onlar sənin yanına piyada və ya hər bir uzaq yoldan gələn qayışbaldır dəvələr üstündə gəlsinlər} ["əl-Həcc" surəsi, 27].

# أتعرف على أركان الإيمان

# İmanın əsaslarını öyrənirəm



Peyğəmbər səllallahu aleyhi və səlləm iman barədə soruşulduqda, o, belə buyurmuşdur: “İman odur ki, Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə iman gətirəsən, habelə, qədərə – onun xeyrinə və şərinə iman gətirəsən” (“Səhih Muslim”, 8).

İmanın əsasları hər bir müsəlmana lazım olan qəlb ibadətləridir. Bunlara etiqad etməyən kimsə müsəlman sayılmır. Elə bu səbəbdən də, bunlar “İmanın əsasları” adlandırılmışdır. İmanın əsasları ilə İslamın əsasları arasındakı fərq budur ki, İslamın əsasları zahiri əməllərə aiddir, yəni adam bunları bədən əzaları ilə yerinə yetirir. Məsələn, dili ilə şəhadət gətirir, bədən əzaları ilə namaz qılır, malından zəkat verir. İmanın əsasları isə qəlb əməllərinə aiddir, yəni insan onu qəlbi ilə yerinə yetirir. Məsələn, Allaha, Onun nazil etdiyi kitablara və göndərdiyi peyğəmbərlərə iman gətirmək.

## İman anlayışı və onun mənası:

səmimi-qəlbdən Allahın, Onun mələklərinin, kitablarının, elçilərinin, Axirət gününün və qədərin – onun xeyrinin və şərinin varlığını təsdiqləmək. Rəsulullahın səllallahu aleyhi və səlləm təbliğ etdiyi hər bir sünnəyə tabe olmaq və onu yerinə yetirmək: dillə tələffüz edərək – “lə ilahə illəllah” demək, Quran oxumaq, “subhanəllah” demək və s. zikrlərlə Allahı tərifləmək.

Zahirdə bədən üzvləri ilə yerinə yetirilən ibadətlər: məsələn, namaz qılmaq, həcc etmək, oruc tutmaq və s. Batinlə əlaqəli ibadət isə qəlblə yerinə yetirilənlərdir: məsələn, Allahı sevmək, Ondan qorxmaq, Ona təvəkkül etmək, İxlasla ona ibadət etmək.

Mütəxəssislər “iman”ı müxtəsər şəkildə belə tərif etmişlər: qəlblə etiqad etmək, dillə tələffüz etmək və bədən əzaları ilə yerinə yetirmək; itaət etməklə artır, asilik etməklə azalır.



# Birinci əsas

## Allaha iman etmək

Uca Allah buyurur: {Möminlər Allaha iman gətirən kimsələrdir} [“ən-Nur” surəsi, 62].

Allaha iman, rububiyyətində, uluhiyyətində, ad və sifətlərində Onun tək İlah olduğuna etiqad etməkdir. Bu etiqad aşağıdakıları özündə ehtiva edir:

- **Allah subhanəhu və təalənin varlığına iman gətirmək.**

- **Allah subhanəhu və təalənin rububiyyətinə** – Onun hər bir şeyin Hökmdarı, Xaliqi, Ruzi verəni və İdarə edəni olduğuna iman gətirmək.
- **Allah subhanəhu və təalənin uluhiyyətinə –** Onun ibadətə layiq olan Tək İlah olduğuna, heç bir şəriki olmadığına iman gətirmək. İbadət deyildikdə, namaz qılmaq, dua etmək, nəzir vermək, qurban kəsmək, kömək diləmək, sığınmaq və digər ibadətlərin hamısı qəsd edilir.
- **Allahın gözəl adlarına və uca sifətlərinə iman deyildikdə,** Allahın Özü haqqında, habelə, Peyğəmbərinin səllallahu aleyhi və səlləm Onun haqqında xəbər verdiyi, eləcə də Allahın və Peyğəmbərinin səllallahu aleyhi və səlləm inkar etdiyi adlar və sifətlər qəsd edilir. Allahın ad və sifətləri ən kamil və ən gözəldir. Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.



## İkinci əsas

### Mələklərə iman etmək

Uca Allah buyurur: {Həmd göyləri və yeri yaradan, mələkləri iki, üç və dördqanadlı elçilər edən Allaha məxsusdur! O, yaratdıqlarından istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir} [“Fatir” surəsi, 1].

Biz iman gətiririk ki, mələklər qeyb aləmindədirlər, onlar Allahın qullarıdır, Allah onları nurdan yaratmış və onları Özünə itaət edən və Ona boyun əyən məxluq etmişdir.

Onlar olduqca böyük məxluqlardır, onların gücünün və sayının nə qədər olduğunu yalnız uca Allah bilir. Onlardan hər birinin özünəməxsus vəsfi, adı, vəzifəsi vardır ki, Allah bunları o mələklərə məxsus etmişdir. Onlardan biri vəhy nazil edən mələk Cəbraildir aleyhissəlam. O, Allahın buyuruqlarını Onun peyğəmbərlərinə nazil etmişdir.





# Üçüncü əsas

## Kitablara iman etmək

Uca Allah buyurur: {Deyin: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə nazil olanlara, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların heç birini digərindən fərqləndirmirik. Biz yalnız Ona təslim olanlarıq!} [“əl-Bəqərə” surəsi, 136].

- Səmavi kitabların hamısının Allahın kəlamı olduğunu qətiyyətlə təsdiqləmək.

- Bu kitablar Allahdan qullarını açıq-aydın haqqa yönəltmək üçün Onun elçilərinə nazil edilmişdir.
- Allah subhanəhu Öz peyğəmbəri Muhəmmədi səllallahu aleyhi və səlləm insanların hamısına elçi göndərərək, onun gətirdiyi şəriətlə əvvəlki şəriətlərin hamısını ləğv etmiş, Qurani-Kərimi digər səmavi



kitablar üzərində hökmran etmiş və onları nəsx (hökmlərini ləğv) etmişdir. Uca Allah Qurani-Kərimi dəyişdirilməkdən və təhrif edilməkdən qorumağı Öz öhdəsinə götürmüşdür. Bu xüsusda, uca Allah buyurur:{Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və əlbəttə, Biz də onu qoruyacağıq} ["əl-Hicr" surəsi, 9]. Belə ki, Qurani-Kərim Allahın bəşəriyyətə nazil etdiyi kitabların, peyğəmbəri Muhəmməd səllallahu aleyhi və səlləm də elçilərin sonuncusudur. İslam dini Allahın bəşəriyyət üçün Qiyamətədək qalmasına razı olduğu dindir. Bu xüsusda, uca Allah buyurur: {Həqiqətən, Allah yanında haqq din, İslamdır!} ["Ali-İmran" surəsi, 19].

## Uca Allahın Quranda zikr etdiyi səmavi kitablar bunlardır:

### Qurani-Kərim:

Allah bu kitabı Öz peyğəmbəri Muhəmmədə səllallahu aleyhi və səlləm nazil etmişdir.

### Tövrat:

Allah bu kitabı Öz peyğəmbəri Musaya aleyhissəlam nazil etmişdir.

### İncil:

Allah bu kitabı Öz peyğəmbəri İsaya aleyhissəlam nazil etmişdir.

### Zəbur:

Allah bu kitabı Öz peyğəmbəri Davuda aleyhissəlam nazil etmişdir.

### İbrahimin səhifələri:

Allah bunları Öz peyğəmbəri İbrahimə aleyhissəlam nazil etmişdir.



# Dördüncü əsas

## elçilərə iman etmək

Uca Allah buyurur: {Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”– deyə, peyğəmbər göndərmişik} [“ən-Nəhl” surəsi, 36].

- Uca Allahın hər ümmətə elçi göndərdiyini, bu elçilərin onları Tək Allaha ibadət etməyə, heç nəyi Ona şərik qoşmamağa və Allahdan başqa ibadət olunan hər bir şeyi inkar etməyə dəvət etdiyini qətiyyətlə təsdiqləmək.

- Həmçinin, o elçilərin hamısının adi bir insan, kişi xeylağı və Allahın qulu olduğunu, doğru danışan və doğruluqları təsdiq olunan, habelə Allahdan qorxan və etibarlı kimsələr olduqlarını, Allahın onlara özlərinin peyğəmbər olduğunu təsdiqləmək üçün möcüzələrlə yardım etdiyini, onların Allah tərəfindən özlərinə buyurulanları tam şəkildə təbliğ etdiklərini, o elçilərin hamısının açıq-aydın haqq üzərində və doğru yolda olduqlarını qətiyyətlə təsdiqləmək.
- Onların hamısının – əvvəlincisindən sonuncusunadək dəvəti eyni olmuşdur. Bu, tövhiddir – Tək Allah ibadət edib, heç nəyi Ona şərik qoşmamaq.

# Beşinci əsas

## Axirət gününə iman etmək

Uca Allah buyurur: {Özündən başqa məbud olmayan Allah, baş verəcəyinə şübhə edilməyən Qiyamət günü sizi mütləq bir yerə toplayacaqdır. Allahdan daha doğru kim danışa bilər?} [“ən-Nisa” surəsi, 87].

- Rəbbimizin Qurani-Kərimdə və ya Peyğəmbərimiz Muhəmmədin səllallahu aleyhi və səlləm hədislərdə xəbər verdiyi Axirət gününə aid olan hər bir məlumatı – insanın öldükdən sonra diriləcəyini, Allahın hüzuruna həşr ediləcəyini, şəfaətçilik məqamını, əməllərin tərəzidə çəkiləcəyini, insanın haqq-hesab olunacağını, Cənnət və Cəhənnəmin varlığını və başqa bu kimi Axirət günüə aid olan məlumatları qətiyyətlə təsdiqləmək.

# Altıncı əsas



## Qədərə – onun xeyrinə və şərinə iman etmək

Uca Allah buyurur: {Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq} ["əl-Qəmər" surəsi, 49].

- Etiqad etmək lazımdır ki, bu dünyada məxluqatın başına gələn hadisələrin hamısı Allah subhanəhu və təalənin elmi və qüdrəti ilə, başqasının deyil, yalnız Onun iradəsi ilə baş verir və bu qədərlərin hamısı insan yaranmamışdan əvvəl yazılmışdır. Həmçinin, etiqad etmək lazımdır ki, insanın istəyi və seçimi var və o, öz əməllərini özü həyata keçirir, lakin bunların hamısı Allahın elmindən, iradəsindən və istəyindən kənara çıxmır.

## Qədərə iman dörd mərtəbə üzərində durur. Bunlar:

**Birncisi:** Allahın elminin hər şeyi əhatə etdiyinə iman gətirməkdir.

**İkincisi:** Qiyamətədək baş verəcək hadisələrin hamısının əzəldən Allah əmri ilə yazıldığına iman gətirməkdir.

**Üçüncüsü:** Allahın istədiyinin baş verdiyinə və Onun qüdrətinin kamil olduğuna iman gətirməkdir. Allahın istədiyi hər bir şey olmuş, istəmədiyi isə olmamışdır.

**Dördüncüsü:** iman etməkdir ki, hər şeyi Allah yaradıb və yaratmaq xüsusunda Onun heç bir şəriki yoxdur.

أتعلم الوضوء

# Dəstəmaz almağı öyrənirəm



Uca Allah buyurur:
{Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da} [“əl-Bəqərə” surəsi, 222].

Peyğəmbər səllallahu aleyhi və səlləm: **“Mənim dəstəmaz aldığım kimi dəstəmaz alsa”– demişdir.”** (“Səhih əl-Buxari”, 159; “Səhih Muslim”, 226).

Namazın əzəmətindəndir ki, Allah ondan əvvəl dəstəmaz almağı buyurmuşdur və onu namazın doğru sayılması üçün şərt etmişdir. Belə ki, dəstəmaz namazın açarıdır və onun fəzilətini hiss etmək üçün vasitədir. Belə olduqda, qəlb namazı qılmaq üçün darıxır. Bu xüsusda Peyğəmbər səllallahu aleyhi və səlləm demişdir:**“Təmizlik imanın yarısıdır. Namaz nurdur”** (“Səhih Muslim”, 223).

O, həmçinin, demişdir: **“Kim dəstəmaz alar və dəstəmazını gözəl şəkildə yerinə yetirərsə, günahları vücudundan xaric olar”** (“Səhih Muslim”, 245).

Qul bu mənəvi ibadəti dəstəmazlı halda, ixlasla Allah rizası üçün və Peyğəmbərin səllallahu aleyhi və səlləm sünnəsinə uyğun olaraq öz Rəbbinə təqdim edir.

## Aşağıdakı əməllər üçün dəstəmaz almaq vacibdir:

1. **Namaz qılmaq üçün – istər fərz, istərsə nafilə namazı olsun.**
2. **Kəbəni təvaf etmək üçün.**
3. **Qurana toxunmaq üçün.**

## Təmiz su ilə dəstəmaz alır və qüsl edirəm:

Təmiz su: göydən nazil olan, yaxud yerdən qaynayıb çıxan və öz xilqətində qalıb, paklığını dəyişdirəcək hər hansı bir şeylə üç vəsfindən birinin – rənginin, dadının və iyinin dəyişmədiyi sudur.

## Addım

## 1

### Niyyət etməkdir

Niyyətin yeri qəlbdir. Niyyət: ibadəti Allaha yaxınlaşmaq məqsədilə yerinə yetirməyə qəsd etmək.

## Dəstəmaz almağı öyrənirəm

1 **2** 3 4 5 6 7 8

Addım

2



əlləri yumaqdır.

## Dəstəmaz almağı öyrənirəm

1 2 **3** 4 5 6 7 8

Addım

**3**



## Madmada etməkdir:

Madmada: suyu ağıza alıb, onun içində fırladıb sonra ağızdan xaric etməkdir.

Addım

4



## istinşaq və istinsar etməkdir.

**İstinşaq:** içəri nəfəs alaraq suyu burunun dərinliyinə çəkməkdir.

**İstinsar:** nəfəsi geri verməklə, suyu burun deşiklərindən xaric etməkdir.

# Dəstəmaz almağı öyrənirəm

1 2 3 4 5 6 7 8

Addım

5



üzü yumaqdır.

Üzün hududları:

**Üz:** başın üzbəüz görünən tərəfi.

**Üzün eninə olan hüdudu:** qulaqdan qulağa.

**Üzün uzununa olan hüdudu:** başın tük bitən yerindən çənənin aşağısınadək.

Üzü yuduqda üzdə bitən tükləri o cümlədən də ağ və yanaqda bitən tükləri yumaq vacibdir.

**Ağ tükləri:** yanaqla qulağın mərcəyi arasında bitən tüklərdir.

**Yanaqdakı tüklər:** üzün almacıq sümüyündən bitən tüklərdir.

Üzü yumaq deyildikdə, üzdə bitən qalın saqqal da bura aid edilir.

Addım 6



**əl barmaqlarının uclarından başlayaraq dirsəklərə qədər qolları yumaqdır.**

Qolları yuduqda dirsəkləri də yumaq vacibdir.

# Dəstəmaz almağı öyrənirəm

1 2 3 4 5 6 7 8



Addım
7

iki əllə başa və qulaqlara bir dəfə məsh etməkdir.

Başın ön tərəfindən başlayaraq qafaya doğru, sonra da geriyə məsh etmək.

Şəhadət barmaqlarını qulaqların deşiklərinə salmaqla;

Baş barmaqlarını da qulaqların arxasına çəkməklə qulağın zahirinə və batininə məsh edilir.



## Dəstəmaz almağı öyrənirəm

1 2 3 4 5 6 7 **8**

Addım

8



**Ayaq barmaqlarının uclarından başlayaraq,** topuqlara qədər ayaqları yumaqdır. Ayaqları yuduqda topuqları da yumaq vacibdir.

**Topuq:** baldır sümükləri ilə pəncə sümüklərinin birləşdiyi yerdə yanlara çıxan oynaqdır.

# Dəstəmazı aşağıdakı amillər batil edir

Ön və arxa ifrazat çıxışlarından xaric olanlar: məsələn, sidik, nəcis, yel, məzi, məni və istihazə halında gələn qan.

---

Dərin yuxuya getməklə, yaxud huşu itirməklə, sərxoşedici maddə qəbul etməklə və ya dəli olmaqla ağlın başdan çıxması.

---

Cənabət, heyz və nifas halı kimi qüslü vacib edən hər bir amil.




İnsan təbii ehtiyacını rəf etdikdən sonra ifrazat çıxışlarında qalmış nəcasəti, ya su ilə yumalı – ən əfzəli də budur, ya da nəcasəti təmizləyəcək daş, yaxud kağız, yaxud parça və başqa buna bənzər təmizləyicilərlə təmizləməlidir. Bu təmizləyicilərlə üç dəfə və daha çox dəfə məsh etməklə təmizlənməli və o təmizləyici murdar əşya olmamalıdır.

المسح على الخفين والجوربين

# Məstlər və corablar üzərinə məsh etmək





Ayağa məst və ya corab geyinmiş ikən dəstəmaz aldıqda, ayaqları yumağa ehtiyac olmadığı təqdirdə məstlərin və ya corabların üzərinə məsh etmək aşağıdakı şərtlərlə icazəlidir:

1. Kiçik və ya böyük natəmizlikdən kamil şəkildə təmizlənib (dəstəmaz və ya qüsl alıb), ayaqları da yuduqdan sonra məstləri və ya corabları geyinmək.

2. O məstlər və ya corablar təmiz olmalı, nəcasətə bulaşmış olmamalıdır.

3 Onların üzərinə şəriətin müəyyən etdiyi müddət ərzində məsh edilə bilər.

4 Bu məstlər və ya corablar halal maldan olmalıdır. Məsələn, oğurlanmış və ya qəsb edilmiş mal olmamalıdır.



**Məst:** dəridən və ya başqa yumşaq materialdan tikilən ayaqqabıdır. Məsələn, ayağı örtən səndəllər.



**Corab:** parçadan və ya buna bənzər materialdan hazırlanmış ayaq geyimi.



## Məstlər üzərinə məsh etməyin hikməti:

Məstlər üzərinə məsh etməyin hikməti, məsti və ya corabı ayağından çıxartıb ayaqlarını yumağa, xüsusilə də qış vaxtı, soyuqda və ya səfərdə bunu etməyə çətinlik çəkən müsəlmanların işini asanlaşdırmaq və yüngülləşdirməkdir.

## Məshin müddəti:wiping:

**Sakin olduğu yerdə:** bir gün və bir gecə (24 saat).

**Səfərdə:** üç gün və üç gecə (72 saat).

**Məshin müddəti, dəstəmaz pozulduqdan sonra dəstəmaz alıb  məstlərə və ya corablara edilən ilk məsh vaxtından başlayır.**

**Məstlərə və ya corablara məsh etməyin qaydası:**

1. Qüslü pozan hər bir amil.
2. Məsh müddətinin bitməsi.



## Məstlərə və ya corablara məsh etməyin qaydası:

1. Əlləri su ilə islatmaq.
2. Yaş əlləri ayağın üzərinə (barmaqların ucundan ayağın başlanğıcınadək) məsh etmək.
3. Sağ ayağı sağ əllə, sol ayağı isə sol əllə məsh etmək.

# الغسل

# Qüsl





Kişi və ya qadın cinsi əlaqəyə girərsə, yaxud kişidən və ya qadından istər ayıq halda, istərsə də yuxuda şəhvətlə məni ifraz olarsa, namaz qılmaq və ya təharətli olmadan yerinə yetirilməsi icazəli olmayan bir ibadəti yerinə yetirmək üçün onlara qüsl almaq vacib olur. Qadına həmçinin, heyz və ya nifasdan təmizləndikdən sonra, namaz qılmaq və ya təharətli olmadan yerinə yetirilməsi icazəli olmayan bir ibadəti yerinə yetirmək üçün qüsl almaq vacibdir.



## Qüsl etməyi qaydası aşağıdakı kimidir:

Müsəlman olan adam suyu istənilən şəkildə bədəninin hər yerinə toxundurmalı (bədən üzvlərinin hamısını su ilə yumalı), o cümlədən ağzını su ilə yaxalamalı və burnuna su alıb sonra onu burun deşiklərindən xaric etməlidir. Onun bədəninin hər yerinə su dəydiyi təqdirdə, artıq natəmizlik aradan qalxmış və o, qüsl etmiş sayılır.

## Cənabətli halda olan kəs qüsl edənədək aşağıdakı ibadətləri etməməlidir:

1. Namaz qılmaq.
2. Kəbəni təvaf etmək.
3. Məsciddə qalmaq. Məsciddə durmadan içindən keçib getmək isə icazəlidir.
4. Qurana toxunmaq.
5. Quran oxumaq.

التيمم

# Təyəmmüm





Müsəlman təmizlənmək (qüsl etmək və ya dəstəmaz almaq) üçün su tapmadıqda, yaxud xəstəlik səbəbindən sudan istifadə edə bilmədikdə və buna bənzər hallarda, namazın vaxtının çıxacağından ehtiyat etdiyi təqdirdə, torpaqla təyəmmüm edə bilər.







**Təyəmmümün qaydası belədir: əllərinin içini bir dəfə torpağa vurmalı, sonra əllərinin içini əvvəlcə üzünə, ardından da əllərini bir-birinə sürtməlidir. Torpağın təmiz olması şərtdir.**

## Təyəmmümü pozan amillər bunlardır:

1. Dəstəmazı pozan amillər təyəmmümü də pozur.

2. Təyəmmüm edib, ibadətə başlamazdan əvvəl su tapılarsa, onda bu təyəmmüm pozulur.

أتعلم الصلاة

# Namaz qılmağı öyrənirəm





Allah müsəlmana gecə-gündüz beş vaxt namaz qılmağı əmr etmişdir. Bunlar: fəcr, zöhr, əsr, məğrib və işa namazlarıdır.

## Namaz qılmağa hazırlaşıram

Namazın vaxtı girdikdə müsəlman kiçik natəmizlikdən və bir də ehtiyac varsa, böyük natəmizlikdən təmizlənməlidir.

**Böyük natəmizlik:** qüslü vacib edən hər bir amildir.

**Kiçik natəmizlik:** dəstəmazı vacib edən hər bir amildir.

- Müsəlman təmiz libasda, nəcasət olmayan təmiz yerdə və ayıb yerləri örtülü olduğu halda namaz qılmalıdır.
- Namaz qılmaq istəyən müsəlman əyninə libas geyinməli və bu libasla bədənini örtməlidir. Namaz əsnasında kişi xeylağının göbəkdən dizə qədər bədəninin hər hansı bir yeri görünməməlidir.

- Qadın isə namaz əsnasında bədəninin - əllər və üz – istisna olmaqla hər yerini örtməlidir.

- Müsəlman namaz qıldıqda, namaza aid olan məxsusi sözlərdən başqa söz deməməli, imamla qıldıqda isə, ona tabe olaraq susmalıdır. Namaz qıldıqda o yan-bu yana dönməməlidir. Namazın sözlərini yadda saxlaya bilmirsə, sadəcə, Allahın adını zikr edərək və Onu tərfləyərək (subhanəllah, əlhəmdulilləh, Allahu əkbər və s. deməklə) namazını bitiməlidir. Namazı öyrənməyə başladıqda onun sözlərinin hamısını birdən öyrənmək vacib deyil.



1
2
3
4
5
6
7
8
9
10
11
12

## Addım 1

Qılmaq istədiyim fərz namazı üçün niyyət etmək. Niyyətin yeri qəlbdir.

Dəstəmaz aldıqdan sonra qibləyə tərəf yönəlirəm və mümkün olduğu təqdirdə ayaq üstə namazımı qılıram.

# Namaz qılmağı öyrənirəm

1
2
3
4
5
6
7
8
9
10
11
12



Addım

2

Namaza başlamağa qəsd edərək İki əlimi çiyinlərim bərabərinə qaldırıb: **“Allahu Əkbər”** deyirəm.



Addım

3

hədislərdə varid olmuş açılış dualarından birini oxuyuram. Məsələn:
**“Subhanəkə, Allahummə və bihəmdikə və təbarəkəs-mukə və təalə cəddukə və lə ilahə ğayruk.”**

**Tərcüməsi:** Allahım, Sən pak və müqəddəssən. Sənə həmd olsun. Sənin adın mübarək, əzəmətin ucadır. Səndən başqa məbud yoxdur!

1 2 3 4 5 6 7 8 9 10 11 12



Addım

4

lənətə gəlmiş şeytandan Allaha sığınaraq deyirəm:

**“Əuzu billəhi minəş-şeytanir-racim.”**

**Tərcüməsi:** lənətə gəlmiş şeytandan Allah sığınıram!

# Namaz qılmağı öyrənirəm

1
2
3
4
5
6
7
8
9
10
11
12




Hər rükətdə "əl-Fatihə" surəsini (ərəbcə) oxuyuram:{ Mərhəmətli və Rəhmli Allahın adı ilə! (1) [Praise is due to Allah, Lord of the worlds] (2) Həmd, aləmlərin Rəbbi Allaha məxsudur. (3) Mərhəmətli və Rəhmliyə. (4) Din gününün Hökmdarına! (5) Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik. (6) Bizi düz yola yönəlt. (7) Nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların yoluna yox!"After al-Fātihah, I recite verses from the Qur'an (other than al-Fātihah) only in the first and second Rak'ah.

# Namaz qılmağı öyrənirəm



Hər namazda yalnız birinci və ikinci rükətlərdə **“əl-Fatihə”** surəsini oxuduqdan sonra, Qurandan bildiyim surələrdən birini oxuyuram. **“əl-Fatihə”** surəsindən sonra surə oxumaq vacib deyil, lakin onu oxumaqda böyük savab var}.

# Namaz qılmağı öyrənirəm

1
2
3
4
5
6
7
8
9
10
11
12



Addım

6

**“Allahu Əkbər”** deyib, rükuya gedirəm. Rükuda belimi dümdüz tutur, əllərimi də dizlərimin üstünə, barmaqlarımı da bir-birindən aralı olduğu halda qoyuram. Sonra rüku vəziyyətində: **“Subhanə rabbiyəl-azim!”** deyirəm.

**Tərcüməsi:** Əzəmətli Rəbbim pak və müqəddəsdir!

# Namaz qılmağı öyrənirəm





Addım 7

rükudan qalxa-qalxa: **“Səmi Allahu limən həmidəh”** deyirəm və əllərimi çiyinlərim səviyyəsinə qaldırıram. Rükudan qalxıb dikəldikdən sonra: **“Rabbənə və ləkəl həmd!”** deyirəm.

**Tərcüməsi:** Allah Ona həmd edəni eşitdi!

# Namaz qılmağı öyrənirəm

1
2
3
4
5
6
7
8
9
10
11
12



Addım

8

**“Allahu Əkbər”** deyərək, hər iki əlin pəncə, iki diz və hər iki ayağın barmaqları üzərinə səcdə edirəm və səcdədə: **“Subhanə Rabbiyəl-Ə’la!”** deyirəm.

**Tərcüməsi:** Ən uca Rəbbim pak və müqəddəsdir!

# Namaz qılmağı öyrənirəm

1
2
3
4
5
6
7
8
9
10
11
12



Addım

9

**“Allahu Əkbər”** deyərək səcdədən qalxıb belim düz vəziyyətdə, sağ ayağımı qatlayaraq, sol ayağım üstə otururam və: **“Rabbi-ğfir li!”** deyirəm.

**Tərcüməsi**: Ey Rəbbim məni bağışla!

1
2
3
4
5
6
7
8
9
10
11
12



Addım

10

**"Allahu Əkbər"** deyərək, eyni ilə birinci səcdə kimi ikinci dəfə səcdə edirəm.

1
2
3
4
5
6
7
8
9
10
11
12



Addım

11

**“Allahu Əkbər”** deyərək səcdədən qalxıb, ayaq üstə düz dururam. Sonra namazın birinci rükətində etdiklərimi digər rükətlərində təkrar edirəm.



Zöhr, əsr, məğrib və işa namazlarında ikinci rükəti tamamladıqdan sonra birinci təşəhhüdü oxumaq üçün otururam. Təşəhhüd duası belədir: “Ət-təhiyyətu lillahi, vəs-saləvatu, vət-tayyibət. Əssəlamu aleykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərakətuh. Əssəlamu aleynə və alə ibadillahis-salihin. Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh!”

**Tərcüməsi:** Salamlar, dualar və gözəl şeylər Allaha məxsusdur. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti (sənə olsun)! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və rəsuludur!

Sonra üçüncü rükəti qılmaq üçün ayağa qalxıram. Nəhayət, son rükəti tamamladıqdan sonra sonuncu təşəhhüdü oxumaq üçün otururam. Təşəhhüd duası belədir: Ət-təhiyyətu lillahi, vəs-saləvatu, vət-tayyibət. Əssəlamu aleykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərakətuh. Əssəlamu aleynə və alə ibadillahis-salihin. Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh. Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə və alə ali İbrahim, innəkə həmidun məcid. Allahummə barik alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə barəktə alə İbrahimə və alə ali İbrahim, innəkə həmidun məcid!”.

**Tərcüməsi:** Salamlar, dualar və gözəl şeylər Allaha məxsusdur. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti (sənə olsun)! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və rəsuludur! Allahım, İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım, İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!

# Namaz qılmağı öyrənirəm

1
2
3
4
5
6
7
8
9
10
11
12



Addım

12

Sonra namazı biritirmək məqsədilə başımı əvvəlcə sağ tərəfə çevirib: **"Əssələmu aleykum və rahmətullah!",** sonra sol tərəfə çevirib: **"Əssələmu aleykum və rahmətullah!"** deyirəm. Beləliklə də namazımı qılmış sayılıram.

**Tərcüməsi:** Sizə salam olsun və Allahın rəhməti yetişsin!

حجاب المرأة المسلمة

# Müsəlman qadının hicabı





Uca Allah buyurur:

{Ey Peyğəmbər, zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, naməhrəm yanında çarşabları ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhmlidir} [əl-Əhzab" surəsi, 59].

Uca Allah müsəlman qadına naməhrəm kişilərə görünməmək üçün hicab geyinməyi, övrət yerlərini – bədəninin hər yerini örtməyi vacib buyurmuşdur. Qadın yalnız ərinin, yaxud məhrəmlərinin yanında hicabsız ola bilər. Qadının məhrəmi o kəsdir ki, ona ərə getmək əbədi olaraq qadına qadağandır. Bunlar: "Ata, baba, atanın babası, babanın atası; oğul, nəvə, nəticə, nəticənin oğlu; əmi, dayı, qardaş, qardaş oğlu, bacı oğlu, ananın əri (ögey ata), qayınata, qayınatanın atası, babası və ya atasının babası, ərin oğlu (ögey oğul), nəvəsi, nəvəsinin oğlu, qadının süd qardaşı, süd verən qadının əri. Belə ki, qan qohumlarına bir-biriləri ilə evlənmək haram buyurulduğu kimi, süd qohumlarına bir-biri ilə evlənmək haram buyrulmuşdur."

# Müsəlman qadın geyindiyi libasda aşağıda qeyd edilənlərə diqqət etməldir:

**Birincisi:** hicab onun bədəninin hər yerini örtməlidir.

**İkincisi:** cazibəli görünmək üçün geyindiyi bəzəkli geyimlərdən olmamalıdır.

**Üşüncüsü:** bədəni görünəcək dərəcədə şəffaf olmamalıdır.

**Dördüncüsü:** bədən əzalarını bildirməyən, gen-bol libas olmalıdır.

**Beşincisi:** ətirli olmamalıdır.

**Altıncısı:** kişilərin geyiminə bənzəməməlidir.

**Yeddincisi:** qeyri-müsəlman qadınlarının öz ibadətləri və bayramları üçün geyindiyi geyimlərdən olmamalıdır.

من صفات المؤمن

# Möminin vəsflərindən bəzisi





Uca Allah buyurur: {Möminlər o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbləri qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edərlər} [“əl-Ənfal” surəsi, 2].

- Danışanda, düz danışır, yalan danışmır.
- Əhd bağladıqda və vəd verdikdə vədini yerinə yetirir.
- Höcətləşdikdə, qışqır-bağır salmır.
- Əmanəti yiyəsinə qaytarır.
- Özünə istədiyini müsəlman qardaşı üçün də istəyir.
- Səxavətlidir.
- İnsanlara yaxşılıq edir.
- Qohumlarla əlaqə saxlayır.
- Allahın yazdığı qədərdən razı qalır, xoş günündə Allaha şükür edir, sıxıntı anında isə səbir edir.

- Həyalıdır.
- Yaradılanlara rəhm edir.
- Başqalarına qarşı qəlbində kin saxlamır və əli, dili və s. əzaları ilə heç kəsə əziyyət vermir.
- İnsanların xətalarını əfv edir.
- Sələm yemir və sələmçiliklə məşğul olmur.
- Zina etmir.
- Sərxoşedici içki içmir.
- Qonşusuna yaxşılıq edir.
- Heç kəsə zülm və xəyanət etmir.

- Oğurluq və dələduzluq etmir.

- Valideynləri müsəlman olmasa belə, onların qeydinə qalır və Allaha asilik sayılmayan işlərdə onlara itaət edir.

- Övladlarına gözəl tərbiyə verir, şəriətin vacib buyurduqlarını onlara əmr edir, habelə, günah işləri və haram buyurulanları onlara qadağan edir.

- Qeyri-müsəlmanlara xas olan dini ayinlərdə və ya onların şüarı sayılan adətlərində onlara bənzəməkdən uzaq durur.

سعادتي في ديني الإسلام



# İslam dinimdəki səadətim



Uca Allah buyurur: {Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq} [“ən-Nəhl” surəsi, 97].

Müsəlmanın qəlbinə sevinc, xoşbəxtlik və səadət gətirən ən böyük əməl, onun istər diriləri, istər ölüləri, istərsə də bütləri arada vasitəçi tutmadan birbaşa Rəbbi ilə əlaqə qurmasıdır. Uca Allah Qurani-Kərimdə, hər zaman qullarına yaxın olduğunu, onları eşitdiyini və onların dualarını qəbul etdiyini bildirir. Bu xüsusda, uca Allah belə buyurur Allah Almighty says: {Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən onlara yaxınam, Mənə dua edənin duasını dua etdiyi vaxt qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, doğru yola yönəlsinlər} ["əl-Bəqərə" surəsi, 186].

Həmçinin, pak və müqəddəs Allah bizə Ona dua etməyi əmr etmiş və bunu müsəlmanı öz Rəbbinə yaxınlaşdıran ən əzəmətli ibadətlərdən etmişdir. Bu xüsusda, Allah azzə və cəllə belə buyurur: {Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizə cavab verim] ["Ğafir" surəsi, 60] .

Əməlisaleh müsəlman daim Rəbbinə möhtacdır, daim Onun hüzurunda durub, Ona dua edir və saleh ibadətlərlə Ona yaxınlaşır.

Uca Allah bu kainatda bizi əbəs yerə yaratmayıb, böyük bir hikmət üçün yaradıb. Bu hikmət: yalnız Ona ibadət etmək və heç nəyi Ona şərik qoşmamaqdır. Allah bizə həyatımızdakı xüsusi və ümumi işlərimizin hamısını əhatə edən və onları nizamlayan rəbbani bir din göndərmişdir. Allah bu ədalətli şəriət sayəsində həyatda lazım olanları – dinimizi, canımızı, namusumuzu, ağlımızı və mal-dövlətimizi qoruyur. Kim bu şəriətdəki əmrləri yerinə yetirib, haramlardan çəkinərsə, həyatda özünə lazım olanları qoruyar və heç şübhəsiz, həyatı boyu rahat və xoşbəxt olar.

Müsəlmanın öz Rəbbi ilə qurduğu əlaqə olduqca dərindir. Bu əlaqə onun qəlbinə arxayınlıq, rahatlıq, sükunət, əminlik və sevinc bəxş edir, habelə Rəbbinin mömin quluna yaxın olduğunu, köməyində durduğunu və dost olduğunu

ona hiss etdirir: {Allah iman gətirənlərin dostudur, onları zülmətlərdən nura çıxardır} ["əl-Bəqərə" surəsi, 257].

Bu əzəmətli əlaqə vicdanla bağlı elə bir haldır ki, insana Mərhəmətli Allaha ibadət etməkdə zövq verir, onu Rəbbi ilə görüşməyə təşviq edir və ona imanın şirinliyi daddıraraq qəlbinə xoşbəxtlik bəxş edir.

Bu, elə bir şirinlikdir ki, onun ləzzətini vəsf etmək mümkün deyil. Onu yalnız şəriətin buyuruqlarını yerinə yetirən və qadağalarından çəkinən kimsə dada bilər. Odur ki, Peyğəmbər səllallahu aleyhi və səlləm demişdir: "Allahın Rəbb, İslamın din və Muhəmmədin peyğəmbər olduğundan razı qalan kimsə imanın tamını dadmış olar!" ("Səhih Muslim", 34).

Bəli, əgər insan daim öz Xaliqinin hüzurunda olduğunu hiss etsə, Onu gözəl adları və sifətləri ilə tanısa, sanki Onu görürmüş kimi Ona ibadət etsə, ibadətini ixlasla yalnız Allaha yönəltsə və Allahdan başqasını Ona şərik qoşmasa, bu dünyada

xoşbəxt və gözəl həyat yaşayar, axirətdə isə gözəl sonluğa qovuşar.

Hətta, mömünin bu dünyada məruz qaldığı müsibətlərin hərarəti iman yəqinliyi ilə, Allahın yazdığı qədərə razı qalmaqla, Onun yazdığı qədərin xeyrinə və şərinə həmd etməklə, tam şəkildə qədərə razı qalmaqla soyuyur.

Mömin insanın öz səadətini və rahatlığını artırmaq üçün Allahı çox zikr etməli və Qurani-Kərimi çox oxumalıdır. Bu xüsusda, uca Allah belə buyurur: {Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapar} ["ər-Rəd" surəsi, 28]. Müsəlman olan şəxs Allahı zikr etməyini və Quran oxumağını nə qədər artırarsa, bir o qədər də Allahla olan əlaqəsi artar, nəfsi təmizlənər və imanı güclənər.

Həmçinin, hər bir müsəlmana vacibdir ki, dininə aid olan məsələləri səhih mənbələrdən öyrənsin. Belə etməlidir ki, Allaha mötəbər dəlillərə əsasən ibadət

etsin. Bu xüsusda, Peyğəmbər səllallahu aleyhi və səlləm belə buyurmuşdur: {Elm öyrənmək hər bir müsəlmana vacibdir} ("Sunən İbn Macə", 224).

Həmçinin, ona vacibdir ki, onu yaradan Allahın əmrlərinə, – onların hikmətini anlasa da, anlamasa da, tam təslim olsun. Uca Allah Qurani-Kərimdə belə buyurur: {Allah və Onun Rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür} ["əl-Əhzab" surəsi, 36].

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə Allahın salavatı və salami olsun!




Şəklin üstünə vurmaqla
kitabın başlığına qayıt